SAHİBKARLAR İXRACIN YOLUNU QLOBAL İSTEHSALÇILARLA STRATEJİ PARTNYORLUQDA GÖRÜRLƏR

SƏH. 2 | LAYİHƏ

Конкурентоспособность в аграрной сфере: сущность и содержательные элементы

SƏH. 4 | AQRAR

İQTİSADİYYAT qəzeti 15 il

iqtisadi qüdrətimiz naminə!

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№19 (813)
16 - 22 may
2014-cü il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

Fransua Ollandın Azərbaycana rəsmi səfəri Fransa-Azərbaycan dostluq əlaqələrinin inkişafında mühüm addım olacaqdır

Mayın 11-12-də Fransa Prezidenti Fransua Olland Azərbaycanda rəsmi səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan Fransa Respublikasının Prezidenti Fransua Olland Bakı Fransız Liseyində aparılan tikinti işləri ilə tanış olmuşlar. Liseyin 320 yerlik binasının tikintisi üzrə işlərin mühüm hissəsi artıq başa çatmışdır və qalan işlərin də bu ilin sentyabrına qədər yekunlaşdırılması nəzərdə tutulur. Fransa Prezidentinin diqqətinə çatdırılmışdır ki, bu təhsil ocağı Bakının "Ağ şəhər" adlanan ərazisində inşa olunur. Dünyada şəhərsalma sahəsində həyata keçirilən ən iri və nadir layihələrdən olan "Bakı Ağ şəhər" layihəsinin maraqlı tərəflərindən biri də burada Paris məhəlləsinin salınmasıdır.

Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Fransua Olland mərasimdə çıxış etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Olland mayın 11-də İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmişlər.

* * *

Mayın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi olmuşdur.

Mayın 12-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın mətbuat konfransı olmuşdur. Dövlət başçıları əvvəlcə mətbuata bəyanatlarla çıxış etmişlər.

* * *

Mayın 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-Fransa biznes forumu keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Respublikasının Prezidenti Fransua Olland biznes forumda iştirak etmişlər.

Dövlət başçıları forumda çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında demişdir: "Şübhə yoxdur ki, Fransa Prezidentinin Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə çox əlamətdar hadisədir. Bu səfər əlaqələrimizin inkişafına çox güclü təkan verəcəkdir.

SƏH. 2

Ölkədə daha bir beşulduzlu otel - "Şamaxi Palace Platinum By Rixos" açıldı

Mayın 14-də Şamaxı rayonunun Şərədil kəndində beşulduzlu "Şamaxi Palace Platinum By Rixos" otelinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir. Altımərtəbəli otel 102 otaqdan ibarətdir. Otaqlardan 82-si "Delux", 9-u "Suite", 8-i "King-suite", 3-ü isə "Presidential suite"dir. Burada 450 nəfərlik şadlıq sarayı, 2 restoran, 8 bar, 200 nəfərlik konfrans zalı, 30 nəfərlik toplantı otağı, anfiteatr, lüks gecə klubu, uşaq əyləncə guşəsi, "SPA" mərkəzi və s. vardır.

Dövlətimizin başçısı otelin kollektivi ilə görüşmüşdür.

Türkiyədə mədəndə baş vermiş partlayışda həlak olanların sayı artmışdır

Mayın 13-də Türkiyənin Manisa vilayətindəki mədənlərdən birində baş vermiş partlayış çoxlu sayda insan tələfatına səbəb olmuşdur.

Ən son məlumata görə, 245 nəfərə çatan insan tələfatının artacağı istisna deyildir. Aralarında vəziyyəti ağır olan 80 yaralı xəstəxanalara yerləşdirilmişdir. Hələ də yanğının davam etdiyi mədəndə təxminən 120 nəfərin qaldığı ehtimal olunur.

Faciə yerində fövqəladə qərargah fəaliyyət göstərir. Fəlakət bölgəsinə gələn Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Soma rayon bələdiyyəsində toplantı keçirmişdir. Mədəndə – yerin altında qalan insanların xilas edilməsi üçün bütün imkanların səfərbər olduğu bildirilir.

Mayın 13-dən etibarən ölkədə üç gün matəm elan edilmişdir. Kütləvi mədəniyyət tədbirləri və əyləncələrin keçirilməsi qadağan edilmiş, bütün dövlət qurumlarında dövlət bayraqları yarıyadək endirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Zatialiləri cənab Rəcəb Tayyib Ərdoğana öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı vermişdir.

Azərbaycanda fantastik sığorta ödənişi

Azərbaycanın sığorta bazarında son illərin ən böyük sığorta ödənişi həyata keçirilib.

2,88 milyon avro və ya 3,13 milyon manat ödənişi "Azərbaycan Sənaye Sığorta" ASC şirkəti mayın 1-də ödəyib. Sığorta şirkəti hadisənin təfərrüatlarını və müştərinin adını açıqlamır. Əvəzində bildirilir ki, sığorta ödənişi inşaat-montaj sığortası növü üzrə həyata keçirilib.

Qeyd edək ki, bir müddət əvvəl yayılmış məlumatda "Azərbaycan Sənaye Sığorta" şirkəti tərəfindən inşaat-montaj sığortası üzrə 1 mln. 620 min manat ödəniş edildiyi bildirilirdi.

Azərbaycan və Səudiyyə Ərəbistanı ikiqat vergitutmanı aradan qaldırdı

Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, cari ilin 13 may tarixində Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində nazir Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri İbrahim Əbdül Əziz Əl-Əssaf ilə "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiyaya protokol" imzalamışdır.

Bioloji Təbabət Klinikası
Almaniya – Azərbaycan

Üstünlükləri:

- Özünübərpa və müdafiə sistemlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYINƏLƏR:

- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi(osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- İmedis-kompüter vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ
- PZR laboratoriya aparatı vasitəsi ilə dəqiq və keyfiyyətli analizlər

MÜALICƏLƏR:

- Plazmaferez
- Ozonoterapiya
- Son texnologiyalı apparatlarla təchiz olunmuş müasir fizioterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma və zəli terapiyası
- Tibbi kosmetologiya

Ünvan: 3-cü mkr., Cavadxan küç. 24, (Memar Əcəmi metro stansiyasının yaxınlığında)
Telefon: (012)/(070) (050)/(055) 430 89 89
www.biologitababat.az

Fransua Ollandın Azərbaycana rəsmi səfəri Fransa-Azərbaycan dostluq əlaqələrinin inkişafında mühüm addım olacaqdır

(Əvvəli 1-ci səhifədə)

Bir sözlə, əlaqələrimiz çoxşaxəlidir və bir çox sahələri əhatə edir. Hər bir sahə üzrə konkret proqramlar vardır, sənədlər imzalanıbdır. Bu, bizə imkan verəcəkdir ki, Fransa-Azərbaycan əlaqələri çoxşaxəli formada inkişaf etsin. Bu, həm ikitərəfli əlaqələrimiz üçün yeni imkanlar yaradır, regional əməkdaşlıq üçün yeni üfüqlər açır, eyni zamanda, Avropa-Azərbaycan əlaqələrinin inkişafı üçün də Fransa-Azərbaycan əlaqələri çox mühüm rol oynayır. Çünki Fransa Avropanın aparıcı dövlətidir və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında, əlbəttə ki, Fransanın xüsusi yeri və rolu vardır.

İqtisadi sahəyə gəldikdə, mən çox şadam ki, Azərbaycan Fransanın Cənubi Qafqazdakı birinci ticarət tərəfdaşıdır. Bizim ticarət dövriyyəmiz 2 milyard dollara yaxınlaşır. Əldə edilmiş razılaşmalar və imzalanacaq müqavilələr nəticəsində bu rəqəm daha da artacaqdır. Təbii ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Hesab edirəm ki, indiki ticarət dövriyyəsinin həcmi yaxşı bir başlanğıcdır. Bunu artırmaq üçün konkret imkanlar və müştərək siyasi iradə vardır.

Azərbaycanda 50-dən çox Fransa şirkəti fəaliyyət göstərir - həm investorlar, həm podratçı-kontraktorlar kimi. Hesab edirəm ki, növbəti illərdə biz bu istiqamət üzrə inkişaf edəcəyik. Biz Fransa şirkətlərini Azərbaycanda investisiya qoymaq və bizim layihələrdə podratçı-kontraktor kimi iştirak etmək üçün dəvət edirik.

Bu günə qədər ölkəmiz üçün çox vacib olan bir neçə layihədə Fransa şirkətləri çox fəal iştirak etmişlər, yüksək peşəkarlıq göstərmişlər. Onların çox gözəl reputasiyası vardır. Onlar tərəfindən icra edilmiş layihələr Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir.

Ümid edirəm ki, biznes forumun nəticəsi olaraq bizim iş adamları arasındakı əlaqələr daha da yüksək pilləyə qalxacaqdır".

Fransa Prezidenti Fransua Olland Azərbaycandakı dəyişikliklərin şahidi olduğunu bildirmiş, enerji sahəsinə sərmayələrin cəlb edilməsi istiqamətində görülən işləri təqdirəlayiq hesab etmişdir. Prezident qeyd etmişdir ki, nəqliyyat, tikinti, infrastruktur, yeyinti məhsulları kimi sahələrdə görülən işlər region və bütövlükdə dünya üçün nümunəvidir. Dövlət başçısı demişdir: "Son bir il ərzində bazardakı payımız iki dəfə artıb. Hazırda o, Azərbaycan bazarının 4 faizini təşkil edir. Eyni zamanda, biz ölkənizin yeddinci təchizatçısıyıq. Məramımız daha böyük nəticələrə nail olmaqdır".

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Fransua Olland biznes forumda iştirak edən iş adamlarının suallarına cavab vermişlər.

Azərbaycan iqtisadi inkişaf göstəricilərinə görə dünyanın lider ölkələrindən birinə çevrildi və daha da gücləndi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Business Year" nəşrinə müsahibə vermişdir. Müsahibədə Prezident İlham Əliyev son illərdə respublikanın qazandığı uğurlardan danışmışdır.

Mayın 14-də Bakıda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və "The Business Year" şirkətinin təşkilatçılığı ilə "The Business Year: Azerbaijan-2014" nəşrinin təqdimat mərasimi keçirilmişdir.

Təqdimat mərasimində Azərbaycanın dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyətin və KİV-lərin nümayəndələri iştirak etmişlər.

Tədbirdə "The Business year: Azerbaijan-2014" nəşrinin xüsusi buraxılışı barədə slayd şou nümayiş etdirilmişdir.

Nəşrin regional direktoru xanım Betül Çakaloğlu çıxış edərək Azərbaycana həsr olunmuş buraxılış barədə iştirakçılara məlumat vermişdir.

B.Çakaloğlu Azərbaycanın dinamik inkişafını, dünyanın geosiyasi məkanında fəal iştirak etdiyini, ölkəmizin mühüm beynəlxalq ictimai, siyasi, iqtisadi, humanitar forumlara, konfranslara, idman yarışlarına evsahibliyi etdiyini xüsusi vurğulamışdır. B.Çakaloğlu "The Business year: Azerbaijan-2014" nəşrinin ərsəyə gəlməsində kömək göstərmiş Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinə və digər qurumlara təşəkkürünü bildirmişdir.

Diqqətə çatdırılmışdır ki, baş ofisi Londonda yerləşən "The Business Year" dünyanın müxtəlif bölgələrini - Latın Amerikası, Asiya və Afrikanı əhatə edən geniş coğrafiyada sosial-iqtisadi prosesləri izləyən və öz nəşrində işıqlandıran nüfuzlu şirkətdir.

Yeni Mərkəzi Kitabxananın təqdimatı olmuşdur

Mayın 14-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) yeni istifadəyə verilmiş Mərkəzi Kitabxanasında AMEA-nın rəyasət heyətinin geniş tərkibdə iclası keçirilmişdir. İclasda AMEA-nın institutlarının, elmi-tədqiqat müəssisələrinin, regional bölmələrinin rəhbərləri, akademiyanın üzvləri, alimlər, mütəxəssislər, ziyalılar iştirak etmişlər. AMEA-nın prezidenti, akademik Akif Əlizadə çıxış edərək tədbirin əhəmiyyətindən danışmış, yeni istifadəyə verilmiş Mərkəzi Kitabxana haqqında iştirakçılara məlumat vermişdir.

Bu ilin mayın 5-də Prezident İlham Əliyevin iştirakı ilə Mərkəzi Kitabxananın yeni binasının açılışının Azərbaycanın elmi ictimaiyyəti üçün dəyərli töhfə olduğunu söyləyən akademik Akif Əlizadə qeyd etmişdir ki, bu dəyərli elm ocağı respublikamızda milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malik olan ən iri, universal təmayüllü, aparıcı elmi kitabxanadır.

Tədbirdə AMEA Mərkəzi Kitabxanası Mərkəzi İnformasiya Resursları Mərkəzinin direktoru Leyla İmanova Mərkəzi Kitabxana haqqında təqdimatla çıxış edərək bildirmişdir ki, Mərkəzi Kitabxananın yeni binası dövlətimizin başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən, kitabxana fondlarının müasir tələblər səviyyəsində qurulması məqsədilə inşa edilmişdir. Hər iki qurumun başlıca məqsədi yüksək səviyyəli elmi araşdırmaların aparılması üçün müasir informasiya bazasını təmin etməkdən ibarətdir.

İclasda akademik Akif Əlizadə AMEA üzvlüyünə seçkilərə hazırlıq, nadir elmi cihazlardan kollektiv istifadə mərkəzinin təşkili və Azərbaycan alimlərinin I qurultayının keçirilməsi və digər məsələlər haqqında söhbət açmış, tapşırıq və tövsiyələrini vermişdir.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

Sahibkarlar ixracın yolunu qlobal istehsalçılarla strateji partnyorluqda görürlər

Azərbaycanda adambaşına süd istehlakı təxminən 280 kq təşkil edir, bu hesabla Azərbaycanın 9,4 milyon nəfər olan əhalisinin tələbatının ödənilməsi üçün 2,7 milyon ton süd tələb olunur. Artıq tələb olunan südün təxminən 65%-i ölkəmizdə istehsal olunur, qalan 35% isə idxal hesabına ödənilir.

2013-cü ildə Azərbaycanda 1,82 milyon ton süd istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il süd istehsalı 101 min ton və ya təxminən 6% artıb. Ümumiyyətlə, son 5 il ərzində (2009-2013) süd istehsalı 387 min ton və ya 27% artıb.

2013-cü ildə Azərbaycanda 1,82 milyon ton süd istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il süd istehsalı 101 min ton və ya təxminən 6% artıb. Ümumiyyətlə, son 5 il ərzində (2009-2013) süd istehsalı 387 min ton və ya 27% artıb.

Süd məhsullarına tələbatın həmişə olması və onun stabil artması sahibkarların süd istehsalına böyük sərmayələr yatırmasına gətirib çıxardıb. Dövlət tərəfindən xaricdən südlük istiqamətli cins heyvanların idxal olunaraq fermerlərə verilməsi də süd istehsalının artmasına böyük təkan vermişdir.

Ölkəmizdə son illərdə qurulmuş ən müasir süd emalı zavodlarından və heyvandarlıq komplekslərindən biri "Atropatena" QSC-yə məxsusdur. Bunlar "Atena" süd emalı zavodu və "Aqat Aqro" heyvandarlıq kompleksləridir. Ağcəbədi rayonunda fəaliyyət göstərən "Atena" gün ərzində 400 ton çiy südü emal edə bilmək gücü ilə Azərbaycanın ən böyük süd emalı zavodudur.

Bəs, süd istehsalında bazar necə inkişaf edir? Bu sahədə rəqabətin və ixracın artması üçün hansı işlər görülməlidir? Bu və ya digər məsələlərə aydınlıq gətirmək üçün Azərbaycanda tanınmış sahibkar, "Atropatena" QSC-nin İdarə Heyətinin sədri **Elşad Rəsulov** ilə söhbət etdik.

60 MİLYONA YAXIN İNVESTİSİYA YATIRILIB

"Atena" süd emalı zavodu və "Aqat Aqro" heyvandarlıq kompleksi "Atropatena" QSC-nin iki ən iri layihəsidir", - deyən Elşad Rəsulov bildirdi ki, iki layihəyə 5 il ərzində təxminən 60 milyon manata yaxın investisiya yatırılıb. Bu vəsaitə "Atropatena" QSC-nin öz vəsaitləri, Sahibkarlığa Kömək Milli Fondundan və banklardan alınmış kreditlər daxildir.

Elşad Rəsulov bildirdi ki, hazırda zavodun yaxınlığında yaradılmış "Aqat Aqro" heyvandarlıq kompleksi zavodu çiy süd ilə təmin edir. Lakin bu yetərli deyil. Mövcud vəziyyət nəzərə alınaraq 2016-cı ildən kiçik heyvandarlıq təsərrüfatlarının yaradılmasını nəzərdə tutan layihənin icrasına başlanılacaqdır.

"Layihəyə əsasən, sahibkarlar 50-100 baş heyvandan ibarət fermanı dövlətin və bizim dəstəyimiz ilə yarada biləcəklər. Biz layihəni verərək, yaradılacaq fermanı cins inəklə, yemlə və veterenar həkimlə təmin edəcəyik. Dövlət isə güzəştli kredit dəstəyi verəcəkdir. Tutaq ki, birinin 20 hektar ərazisi var. Biz həmin ərazidə nə qədər heyvan saxlamaq mümkün olduğunu və nə qədər yem tələb olunacağını hesablayacağıq. Onun əsasında layihə qurulacaq və həyata keçiriləcəkdir. Bizim bu layihə vasitəsilə zavodumuzu yüksək keyfiyyətli süd ilə təmin etmək fikrimiz var", - deyə Elşad Rəsulov bildirdi.

HEYVANLARIN SAYI 10 MİN BAŞA ÇATACAQ

"Aqat Aqro" heyvandarlıq kompleksində heyvanların sayının 10 min başa çatdırılması üzrə layihənin icrasının davam etdirildiyini qeyd edən Elşad Rəsulov bildirdi ki, tam layihə gücünə gələn ilin sonunda çatılacaqdır.

"Bizim proqramımız davam edir. Hazırda fermada 4000 başa yaxın iri baş heyvan var. Onlardan 1500-ə yaxını sağılan inəklərdir. Biz düşünürük ki, gələn ilin sonuna tam layihə gücünə çatacağıq. Yəni, fermada 3000 baş sağılan, 700-800 baş sağılmayan, qalanları isə buzovlar və danalar olmaqla cəmi 10 min başa yaxın heyvan olacaqdır. Layihə tam gücünə çatdıqda ferma bizə gündə 90-100 ton süd verəcəkdir. Lakin bu belə zavodu tam təmin edə bilmir. Bu məqsədlə kiçik fermer təsərrüfatlarının yaradılması layihəsini həyata keçirəcəyik".

"BAKTERİYA SAYI 100 MİNDƏN AŞAĞI OLMALIDIR"

Elşad Rəsulov qeyd etdi ki, "Atena" üçün ən vacib məsələ südün keyfiyyətidir:

"Biz ən keyfiyyətli südü əldə edirik.Əgər, toplama südün 1 milli qramında bakteriya sayı 2-3 milyondursa, özümüzün istehsal etdiyimiz süddə bu təxminən 5-10 min arasındadır. Avropa standartına görə, südün bir milli qramında bakteriya sayı 100 mindən aşağı olmalıdır. Hal-hazırda bizim istehsal etdiyimiz süd Avropa standartlarında olan süddür. Eyni zamanda, süd 15 dəqiqə ərzində fermadan zavoda çatdırılır və hazır məhsula çevrilir".

"HƏLƏ DƏ SÜD MƏHSULLARI BAHADIR"

Elşad Rəsulovun sözlərinə görə, artıq Azərbaycanın süd və süd məhsulları bazarında rəqabət başlayıb.

"İki il əvvəl bizim bazarda rəqabət, demək olar ki, yox idi.Artıq rəqabət başlayıb və bu rəqabət əsasında qiymətlər dəyişə bilər. Bu şəraitdə kimin rəqabət gücü çox olsa, o davam gətirəcəkdir. Ona görə də biz özümüzün fermer təsərrüfatımızı yaratmışıq, hazırda da yem bazamızı yaratmağı fikirləşirik", - o deyib.

HEYVANDARLIĞA SUBSİDİYALAR VERİLMƏLİDİR

Elşad Rəsulov qeyd edib ki, hələ də Azərbaycan bazarında süd məhsulları qonşu ölkələrlə və Avropa ilə müqayisədə bahalıdır: **"Qiymətlər nisbətən düşməlidir. Avropada və ABŞ-da çox böyük subsidiyalar hesabına süd məhsullarının qiyməti aşağıdır. Bu baxımdan dövlət də bu sahədə düşünüb, fermer təsərrüfatlarına subsidiyalar verməlidir. Subsidiyaların miqdarı nə qədər çox olarsa, qiymət də bir o qədər aşağı düşəcəkdir".**

Cari ilin may ayından Azərbaycanın ən böyük süd emalı zavodunda Fransanın "Danone" şirkətinin məhsullarının istehsalına başlanılacaqdır.

Elşad Rəsulovun sözlərinə görə, QSC-nin "Atena" süd emalı zavodunda Fransa şirkətinin "Danone" və "Activia" məhsullarının istehsalını həyata keçirmək üçün bütün hazırlıq işləri yekunlaşdırılıb:

"Danone" şirkətinin mütəxəssisləri yenidən Azərbaycana gəldilər və zavodun standartlarına uyğun-olub-olmadığını bir daha analiz etdilər. Sonra şirkətin digər mütəxəssisləri zavodumuzda olub reseptləri əsasında test istehsalını həyata keçirdilər və təsdiqlədilər. Eyni zamanda, "Danone" məhsullarının Azərbaycanın standartlara uyğunluğu məsələsi var idi. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət etdik, sənədləşdirmə məsələləri, demək olar ki, həll olunub. Həmçinin, məhsulların dizaynı məsələləri də öz həllini tapıb. Biz bütün bu işlərə təxminən 4 ay vaxt sərf etdik. Artıq may ayından "Danone" və "Activia" məhsullarının istehsalına başlayıb, satışa çıxardacayıq".

Elşad Rəsulov qeyd etdi ki, "Atena" zavodunda "Danone" və "Activia" nın içməli və meyvəli yoğurtları istehsal ediləcəkdir. Məhsulların satışını "Atropatena" şirkəti həyata keçirəcəkdir.

Qeyd edək ki, ötən ilin noyabrında "Danone" şirkətilə "Atena" MMC arasında "Birgə İstehsal Razılaşması" imzalanıb. Razışlaşma Ağcəbədi rayonunda yerləşən "Atena" süd zavodunda "Atena" fermasının südündən istifadə olunmaqla "Danone" məhsullarının istehsalını nəzərdə tutur.

"Danone" məhsullarının "Atena" zavodunda istehsal olunmasının əhəmiyyətinə toxunan Elşad Rəsulov, bunun nəticəsində idxalın yerli istehsal ilə əvəz ediləcəyini, o cümlədən ixrac imkanları yaranacağını söylədi. Bu ildən başlayaraq "Danone" şirkətinin Azərbaycanda istehsal olunacaq məhsullarının Gürcüstana, Türkmənistana və Şimali Qafqaza ixracına başlanılacaqdır.

Elşad Rəsulov qeyd etdi ki, dünya bazarında rəqabət çox güclüdür. Böyük həcmdə ixraca nail olmaq üçün qlobal şirkətlər ilə strateji partnyorluq edilməlidir:

"Azərbaycanın süd istehsalçılarının daxili bazarda özünü güclü hiss etmələri üçün dövlət dəstəyi mütləq lazımdır. Bu dəstək ölkəyə süd məhsullarının idxalının tamamilə dayandırılmasından ibarət olmamalıdır. Balanslaşdırılmış siyasət həyata keçirilməlidir ki, böyük şirkətlər Azərbaycana yavaş-yavaş investisiya yatırmağa başlasınlar. Biz neft sektorunda olduğu kimi, qeyri-neft sektorunda da qlobal şirkətləri ölkəmizə cəlb edib, onlarla strateji partnyorluq yaradaraq, həmin şirkətlər vasitəsilə başqa ölkələrə süd məhsulları ixrac edə bilərik. Belə olmazsa, ixrac çətin olacaqdır. Biz böyük şirkətlər ilə müqayisədə hələ tam dayanıqlı deyilik. Bizim fikirimizcə, böyük şirkətlər ölkəmizə cəlb edilməli, onların yüksək texnologiyaları mənimsənilməli və kadrların hazırlanması sahəsində bacarıqlarımızı artırmalıyıq".

"XARİCİLƏR İLƏ ŞƏRİK OLMALIYIQ"

Qeyd edək ki, bir müddət öncə tanınmış və təcrübəli iş adamı Abdolbari Goozal da Azərbaycan şirkətlərinin xarici şirkətlər ilə şərikli istehsal quraraq dünya bazarına çıxa biləcəklərini bildirmişdi:

"Artıq dünya şirkətləri ilə kooperativ əlaqələrə getməliyik, onlarla ortaqlıq etməliyik, iş birliyi qurmalıyıq. Azərbaycan yerli və dünya miqyasında tanınmış şirkətlərin faydalı əməkdaşlıq etdiyi bir platformaya çevrilməlidir. Deməliyik ki, "gəlin, bizim ölkəmizdə birgə istehsal edək, ətrafımızda bir sıra ölkələr var, onlara məhsullarımızı ixrac edək". Artıq bunun zamanı gəlmişdir. Yaxın gələcəkdə Azərbaycan Dünya Sərbəst Ticarət Razılaşmasını imzalayacaqdır. İndidən şirkətlərimiz tədbir görməlidirlər – dünyanın iri şirkətləri ilə birgə iş qurmalı, müasir texnologiyaları, idarəetmə təcrübələrini, "nou-hau"ları tətbiq etməli və özlərini inkişaf etdirməlidirlər. Belə etməsələr, o zaman quruyan göldə can verən balıq kimi qalacaqlar".

Seymur YUNUSOV

195 Çağrı Mərkəzinə daxil olmuş müraciətlər və göstərilən xidmətlər haqqında

2014-cü ilin aprel ayında Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzində canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən 14 min 418 sual xarakterli müraciət cavablandırılmışdır. Həmin müraciətlər əsasən elektron xidmətlər (19%), qeydiyyat (16%), vergi növlərinin tətbiqi (15%), hesabatlar (10%), elektron imza (6%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (5%) və s. barədə olmuşdur.

Canlı rejimdə daxil olan müraciətlərin 95,3%-i (13 min 738) müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 4,7%-i (680) isə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilməklə, orta hesabla 1,7 gün ərzində cavablandırılmışdır.

Hesabat dövründə vergi ödəyiciləri tərəfindən 1322 dəfə vergi borcu, 811 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Göstərilən dövrdə vergi ödəyicilərinə 84 mindən çox mesaj göndərilmişdir ki, onlardan 82 min 641-i qısa mesaj, 1381-i isə ikitərəfli mesaj olmuşdur.

Aprel ayında Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 358 min 427 daxilolma qeydə alınmışdır.

Respublika üzrə 183 min 204 vergi ödəyicisindən 96,8%-i bəyannamələri vaxtında təqdim etmiş, bunların 90,3%-i isə elektron qaydada olmuşdur.

Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

May ayının 13-də Bakı şəhəri Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Bakı şəhəri, Nizami rayonu, Babək prospekti, 2360-cı məhəllədə yerləşən, "Azinterval" MMC-yə məxsus avtomobillər üçün ehtiyat hissələrinin pərakəndə satışı mağazasında əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir. Vergi ödəyicisinin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 36 min 250 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə aprel ayının 11-də bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi mağazadakı əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və mağazadakı 62 min 280 manatlıq avtomobil mühərriki yağları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Həmin gün vergi orqanı əməkdaşları Səbail rayonu, Nizami küçəsi, ev 68 ünvanda yerləşən,"Travelers Coffee Limited" şirkətinin Azərbaycanda fəaliyyət göstərən "Travelers Coffee" kafesində də əmlakın siyahıya alınması tədbirləri keçirmişlər. Müəssisənin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 14 min 647 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilmiş, borcun bir hissəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənilmiş, borcun qalan hissəsinin ödənilməsini təmin etmək üçün isə kafedəki 5 min 725 manat məbləğində mebel və mətbəx ləvazimatları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Vergi Məcəlləsinin 90-cı maddəsinə əsasən, Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilməzsə, vergi orqanı siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət olunacaqdır.

"Vergilər" bilik müsabiqəsi keçirilmişdir

Vergilərlə bağlı biliklərin daha dərindən mənimsənilməsinin stimullaşdırılması məqsədilə may ayının 14-də Yasamal rayonunda yerləşən 225 saylı orta məktəbdə Bakı şəhərinin orta məktəblərinin şagirdləri arasında "Vergilər" bilik müsabiqəsi keçirilmişdir. Müsabiqədə -3 yaş qrupuna aid 3-5, 6-8 və 9-11-ci siniflərdə təhsil alan və 60-dan çox məktəbi təmsil edən şagirdlər iştirak etmişlər.

Test üsulu ilə keçirilən müsabiqə yekunlaşdıqdan sonra qaliblər müəyyən edilmiş və müvafiq yaş qrupları və siniflər üzrə 1, 2 və 3-cü yerlərin qaliblərinə diplomlar və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Müsabiqədə I yaş qrupu üzrə (III-V siniflər) Xətai rayonu 63 saylı məktəbin 4-cü sinif şagirdi Murad Əliyev 1-ci yerin, Binəqədi rayonu 83 saylı orta məktəbin 5-ci sinif şagirdi Əminə İslam 2-ci yerin, Nərimanov rayonu 258 saylı məktəbin 4-cü sinif şagirdi İlham Süleymanlı 3-cü yerin qalibi, II yaş qrupu üzrə (VI-VIII siniflər üzrə) Yasamal rayonu 225 saylı məktəbin 7-ci sinif şagirdi Elmira Məmmədova 1-ci yerin, Səbail rayonu 51 saylı məktəbin 6-cı sinif şagirdi Asəf Əliyev 2-ci yerin, Binəqədi rayonu 126 saylı məktəbin 8-ci sinif şagirdi Tuncay Məhəmmədli 3-cü yerin qalibi, III yaş qrupu üzrə (IX-XI siniflər üzrə) Qaradağ rayonu 253 saylı məktəbin 9-cu sinif şagirdi Elcan Alməmmədov 1-ci yerin, Nəsimi rayonu 16 saylı məktəbin 10-cu sinif şagirdi Müseyib Şirəliyev 2-ci yerin, Xətai rayonu 269 saylı məktəbin 10-cu sinif şagirdi Samir Salahov 3-cü yerin qalibi olmuşdur.

Tədbirdə Bakı şəhəri Vergilər Departamentinin və Bakı şəhəri üzrə Təhsil idarəsinin nümayəndələri iştirak etmişlər.

Büdcəyə 2 milyard 650 milyon 404,6 min manat vəsait daxil olmuşdur

2014-cü ilin yanvar-aprel aylarında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2 milyard 650 milyon 404,6 min manat təşkil etmişdir. Bu məbləğin 39,8 faizi mənfəət vergisinin, 24,7 faizi əlavə dəyər vergisinin,11,6 faizi fiziki şəxslərin gəlir vergisinin, 9,4 faizi aksizlərin, 14,5 faizi isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 1 milyard 411 milyon 900 min manat vəsait daxil olmuşdur.

Yanvar-aprel aylarında respublika üzrə 30 min 131 vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 may 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 564408 təşkil etmişdir.

2014-cü ilin yanvar-aprel ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,2 faiz təşkil etmişdir.

İstifadəyə yarasız məhsullar məhv edilmişdir

May ayının 6-da Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin və "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyətinin (ASC) nümayəndələri ilə birlikdə Bakı şəhəri Sabunçu rayonu, Balaxanı qəsəbəsində yerləşən inzibati ərazidə aksiz markası ilə markalanmalı olan, lakin markalanmamış və ya saxta aksiz markası ilə markalanmış, istifadəyə yararsız, keyfiyyətsiz tütün və alkoqollu içki məmulatlarının məhv edilməsini həyata keçirmişlər.

Məhkəmə orqanlarının qərarları ilə müsadirə olunmuş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin 7 aprel 2014-ci il tarixli 5549/50 nömrəli rəyinə əsasən istifadəyə yararsız hesab olunmuş 27 min 56 manat dəyərində 2 min 77 ədəd alkoqollu içki və 20 min 575.6 manat dəyərində 9 min 914 qutu tütün məmulatı "Təmiz şəhər" ASC-nin Balaxanı qəsəbəsində yerləşən məişət tullantılarının yandırılması üçün nəzərdə tutulmuş inzibati ərazisində məhv edilmişdir.

Azərbaycan Banklarında daxili audit məsələsinə münasibət

Bank iqtisadiyyatın daha mürəkkəb struktura və xarakteristikaya malik əsas subyektidir. Bank mikroiqtisadiyyat deyil, makroiqtisadiyyatın subyeklərindəndir. Və bankın fəaliyyəti təkcə iqtisadiyyata deyil, siyasətə də təsir göstərir. Belə desək, yəqin ki yanılmarıq – Bank iqtisadi-siyasi əhəmiyyətə malik ən vacib maliyyə qurumudur.

Bank fəaliyyətinin siyasətlə iqtisadiyyatın "kəsişmə nöqtəsində" yerləşməsi ona diqqətin və nəzarətin yüksək səviyyədə təşkil olunmasına zəmin yaradır. Bank sahəsində ola biləcək fırıldaqçılığın qarşısının vaxtında alınması, "çirkli pulların yuyulması" hallarının aradan qaldırılması üçün daxili və xarici auditin keçirilməsi vacibdir.

Hal-hazırda dünya praktikasında və o cümlədən ölkəmizdə də bankın fəaliyyətini yoxlayan daxili və xarici audit xidmətləri mövcuddur. Bankın fəaliyyəti çox şaxəli və mürəkkəb bir prosesdir. Məhz buna görə bank auditi öz özlüyündə çox vaxt və əmək tələb edən bir prosedurdan ibarətdir ki, bu prosedurun da özü bir neçə alt mərhələlərdən təşkil olunur və dərin biliklərə və təcrübəyə malik auditorlar tərəfindən aparılmasını tələb edir.

Daxili audit işinin məqsəd və vəzifələri əsasən risklərin idarə olması, bank əməliyyatlarının və proseslərinin tətbiqi, keyfiyyət prosedurları, aktivlərin qorunması, uçot məlumatlarının adekvatlığı kimi sahələrdə bankın fəaliyyətinin yoxlanılmasından, qiymətləndirilməsindən, Müşahidə Şurasına müvafiq hesabatların verilməsindən və qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə, AMB-nin normativ xarakterli aktlarına və göstərişlərinə riayət olunmasına nəzarət edilməsindən ibarətdir.

Aşağıdakılarla məhdudlaşdırılmamaqla daxili auditin müxtəlif növləri vardır:

- ***Maliyyə auditi: məqsədi uçot sisteminin və məlumatlarının, eləcə də maliyyə hesabatlarının etibarlılığını qiymətləndirməkdir;***
- ***Normativ qaydalara riayət olunmasının auditi: məqsədi qanunlara, təlimatlara, qayda və prosedurlara riayət olunmasını təmin etmək üçün yaradılmış sistem və prosedurların keyfiyyətini və uyğunluğunu qiymətləndirməkdir;***
- ***Əməliyyat auditi: məqsədi sistem və prosedurların keyfiyyətini və uyğunluğunu qiymətləndirmək, təşkilati strukturu diqqətlə təhlil etmək və audit işi ilə bağlı metodların və resursların adekvatlığını qiymətləndirməkdir.***
- ***İdarəetmə auditi: məqsədi rəhbərliyin risklərə və nəzarətə münasibətinin keyfiyyətini qiymətləndirməkdir;***

Zəruri hallarda, auditor daxili qaydalarda, prosedurlarda və əsasnamələrdə dəyişikliklərin edilməsi üzrə tövsiyələr etməli və öz təkliflərini verməlidir.

Daxili audit bölməsi audit planı tərtib edir, mövcud informasiyanı yoxlayır və qiymətləndirir, nəticələri bankın səlahiyyətli idarəetmə orqanı ilə müzakirə edir və tövsiyələr təqdim etməklə onların icra edilməsinə nəzarəti həyata keçirir.

Mərkəzi Bankın daxili audit standartlarına uyğun olaraq, daxili audit bank strukturunun bütün hissələrində bankın fəaliyyətini yoxlamaq və qiymətləndirmək hüququna malikdir. Bu səbəbdən daxili audit bölməsi auditin təkcə bir növü üzərində cəmləşməməli, hər dəfə əldə ediləcək audit məqsədlərindən asılı olaraq, ən uyğun audit növündən istifadə etməlidir. Əlavə olaraq daxili audit öz fəaliyyətini bankın departamentlərinin auditi ilə məhdudlaşdırmır, bank daxili

fəaliyyətlə əlaqədar bütün funksiyalar üzrə fəaliyyətin auditinə də xüsusi diqqət yetirir.

Daxili audit xidməti tərəfindən həyata keçirilən auditin növləri həmin xidmətin rəhbəri tərəfindən müəyyən olunur və bu zaman risklərin qiymətləndirilməsi, o cümlədən daxili nəzarət mühitinin qiymətləndirilməsi, kənar auditin nəticələri, tənzimləyici orqanların yoxlamalarının nəticələri və ya digər müvafiq faktlar və hallar nəzərə alınır.

Həm daxili, həm də xarici audit ildə bir dəfə həyata keçirilir. Bu isə öz növbəsində baş vermiş və ya baş verə biləcək fırıldaqçılıqların baş verdiyi anda araşdırılaraq aradan qaldırılması və fırıldaqçıların yerindəcə cazalandırımasına tam şərait yaratmır. Bankın daxili audit xidmətinin fəaliyyəti əksəriyyət banklarda dövri xarakter daşıyır və AR Mərkəzi Bankın tələbi ilə həyata keçirilir. Təbii ki, belə bir audit yoxlaması bəzən gecikmiş tədbir kimi qiymətləndirilə bilər. Bankın daxili auditi üçün əvvəla AR Mərkəzi Bankının təlimatları və tələbləri aparılmalıdır. Amma hər bir bank öz fəliyyətinə dövrü deyil, daimi nəzarətin təşkil etməsi üçün özünün xüsusi standartlarını və prosedur qaydalarını da yaradaraq tətbiq edə bilər. Bu nəzarətin olduğunu bilən və fırıldaqçılıq etmək istəyən bank əməkdaşı və ya digər şəxslər bu əməllərindən çəkinəcəklər. Hər bir bank bu və ya digər instrumentdən istifadə edərək, səhvən və ya qəsdən baş verə biləcək uyğunsuzluq riskini minimallaşdırmalıdır. Bank daxili audit xidmətinin fəaliyyətini ciddi nəzarətə götürməli və onun fəaliyyətini daim təkmilləşdirməlidir. Auditor yoxlaması həm də mühasibatlıq fəaliy-yətinin düzgün aparılmasının və risk menecmentinin fəaliyyətinin analizinə yönləndilir. Qeyd etmək lazımdır ki, bank əməliyyatları balansda öz əksini tapır və audit yoxlamasının nəticələri bu əks olunmanın nə dərəcədə düzgün olmasından asılıdır. Audit təkcə mühasibat uçotunda mövcud çatışmazlıqları müəyyənləşdirməyə deyil, həm də onların erkən aradan qaldırılması üçün bir sıra effektli tədbirlər kompleksinin hazırlanmasına icazə verir.

Bankda daxili audit yoxlaması zamanı aşağıda sadalanan kompleks tədbirlər həyata keçirilir.

1. Nizamnamə fondunun strukturunun analizi və qiymətləndirilməsi;

2. Balansın likvidliyinin analizi;

3. Risklərin idarə olunması sisteminin qiymətləndirilməsi;

4. Rezervlərin araşdırılması;

5. Kassa-əməliyyat intizamlarının yoxlanılması;

6. Mühasibat hesabatlarının doğruluğunun yoxlanılması.

Azərbaycanda mövcud olan bankların böyük əksəriyyəti daxili auditi AR Maliyyə Nazirliyi və ya Mərkəzi bankın təlimatlarına və tələblərinə uyğun standartlarla həyata keçirilir ki, bunun da bankın inkişafında auditin rolunun daha az effektli olmasi kimi dəyərləndirilə bilər. Belə ki, tələbə uyğun olan audit yoxlaması zamanı bankın etibarlılığının yüksəldilməsi, müştərilərin loyallağı, müştəri xidmətlərinin fəaliyyəti, strateji planın həyata keçirilməsinə nəzarət kimi konseptual məsələlər diqqətdən kənarda qalır.

Məsələn, bəsit dildə desək, auditor dövrü yoxlama zamanı müştəri xidmətlərinin əməkdaşının gündəlik fəaliyyətinin rəsmi (müqavilələr, provodkalar və s.) hissəsini yoxlayır. Müştəriyə kredit xəttinin açılması zamanı həmin prosesin nə qədər vaxt ərzində həyata keçirilməsi və ya müştərinin gözləntilərinin və arzularının nə dərəcədə yerinə yetirilməsi diqqətdən kənarda qalır. Digər sözlə desək, müştəri ilə bağlanmış kredit və ya depozit müqaviləsi bankın prosedur qaydalarına müvafiq düzgün qaydada aparılsa belə, müştərinin nə dərəcə də bankın fəaliyyətindən razı qalması auditor üçün araşdırma obyekti olmur. Bu da sonda müştərinin ikinci dəfə həmin banka loyal yanaşıb yanaşmayacağını müəyyənləşdirir. Təbii ki, daxili audit AMB-nin tövsiyələri və standartları yalnız həmin bankda baş verə biləcək qanunauyğunsuzluqları aşkar etməkdən ibarətdir. Müştəri bazasının artması, bankın strateji planının nə dərəcədə düzgün həyata keçirilməsi, əhali arasında bank imicinin artırılması AMB üçün elə də əhəmiyyət daşımır. Bu məsələlərdə maraqlı tərəf kommersiya bankının özü - səhmdarlarıdır.

Düzdür, Azərbaycanın bəzi banklarında İSO standartları da tətbiq edilir və bildiyimiz kimi, İSO standartları müştərilərə göstərilən xidmətin keyfiyyətinin ölçülməsinə yönləndirilir. İSO standartlarının tələbinə görə, bankın keyfiyyət üzrə meneceri həmin standartlara uyğun olaraq audit keçirməlidir. Təəssüf ki,bir çox hallarda bu audit səthi və formal xarakter daşıyır ki, bu da səhmdarlar üçün vacib qərarların verilməsində ya yanılmalara gətirib çıxarır ya da ki bunun belə olduğunu bilən rəhbərlik həmin auditin nəticələrinə deyil, öz müşahidələrinə əsasən qərar vermək məcburiyyətində qalır. Bu da öz növbəsində bankın inkişafını əngəlləyir.

İSO standartlarının tətbiqi yalnız imic xatirinə sertifikatın əldə edilməsi deyil, prosedurların yüngülləşdirilməsinə, bürokratik əngəllərin aradan qaldırılmasına və tələbatın ödənilməsinə və hər bir müştərinin bankdan məmnun şəkildə getməsinə yönləndirilməlidir.

Sonda onu qeyd etmək lazımdır ki, AMB-nin daxili audit haqqında müəyyənləşdirdiyi standartlara uyğun olaraq, hər bir bankın daxili auditi normal fəaliyyət göstərir. Amma keyfiyyət məsələlərinə gəldikdə isə, bir çox banklarda daxili audit xidmətinin əməkdaşlarının kvalifikasiyalarının artırılmasına ehtiyac duyulur.

Samir Güləhmədzadə,
dissertant

Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin, "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin və Vergilər Nazirliyinin 2008-ci il 26 sentyabr tarixli əmri ilə təsdiq edilmiş "Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi Qaydaları"nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə may ayının 5-dən 18-dək aparılır. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib edilmədiyi barədə məlumat ala bilər.

Sənədləri qəbul edilən namizədlər **30.05-02.06.14-cü il tarixlərində** imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından **(Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16)** götürməlidirlər. Müsabiqənin test imtahanı **iyun ayının 3-də** TQDK-nın müəyyən etdiyi yerdə keçiriləcəkdir.

"Elektron ərizə" formasını doldurmazdan qabaq namizədlər "Sənədlərinin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi" qaydaları ilə tanış olmalı, yalnız bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Elektron poçtu olan namizədlərin poçt ünvanına qeyd olunan qaydalar və digər məlumatlar göndərilir.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı problem yarandıqda **403-87-52** nömrəli telefonla Vergilər Nazirliyinə, nazirliyinin inzibati binasının qəbul otağına, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Diqqət! Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

Qeyd: Elan olunmuş vakant yerlər haqqında ətraflı məlumat www.taxes.gov.az internet saytında yerləşdirilmişdir.

Конкурентоспособность в аграрной сфере: сущность и содержательные элементы

Илькин СОЛТАНЛЫ,
зав. отдела Института Экономики НАН Азербайджана, доктор философии по экономике, доцент

Как известно, добросовестная конкуренция является основой экономического прогресса и устойчивого развития для каждой страны. Конкуренция является важным экономическим процессом, формирующимся в результате влияния законов спроса и предложения и регулирующим экономические отношения на рынке путем воздействия на регулярно меняющиеся цены. Конкуренция ведется в условиях свободного рынка, в условиях независимой деятельности многочисленных товаропроизводителей и свободного ценообразования. В данном случае на рынке имеется большое число продавцов и покупателей. Каждый из них может свободно уйти с рынка и входить на другой рынок. На свободном рынке продавец и покупатель находятся в зависимости от рыночных цен. В условиях свободной конкуренции участники рынка опираются только на собственные силы, стремятся занять свою долю на рынке, и ведут постоянную борьбу за выживание. Конкуренция является необходимым условием рыночной экономики, движущей силой ее развития. Конкуренция – это экономический закон рынка.

Keçid dövründə universitet məzunları peşə mobilliyi tələblərinə cavab verməlidir. Buna xüsusən mühəndis təhsilində ehtiyac var. Belə şəraitdə ali təhsilin məqsədlərindən biri tələbələrə əsaslandırılmış qərarların qəbul edilməsi metodlarının öyrədilməsi olmalıdır. Elmi-konstruktor, texnoloji idarəetmə sahələrində standart olmayan məsələlərin həllində belə qərarlara xüsusi ehtiyac var. Tədris prosesində iki istiqamət nəzərə alınmalıdır:

1. Peşə fəaliyyətinin icrası üçün ixtisas üzrə zəruri biliklərin qazanılması.

2. Qeyri-standart məsələlərin həlli vərdişlərinin formalaşması. Bu məqsədlə tələbələrdə kreativ və sistemli təfəkkür inkişaf etdirilməlidir.

Universitet məzunlarında peşəkarlıq və mobilliklə yanaşı, konkret peşə fəaliyyəti üzrə nəticələrin əvvəlcədən proqnozlaşdırılması qabiliyyəti formalaşdırılmalıdır. Tədris prosesində yeni texnologiyalar daha çox tətbiq edilməlidir (problemli təlim, situativ və işgüzar oyunlar, kompyuter sistemləri, təlimin digər interaktiv forma və metodları).

Müəllimlər tədris fənlərinin qarşılıqlı əlaqələrini reallaşdırmaq üçün tədris edəcəyi materialı strukturlaşdırmalı, tədris materialının məzmunu blok-modul prinsipi əsasında qurulmalıdır. Tədris materialının strukturlaşdırılması elmi biliyin strukturuna uyğun olub, anlayışların sxematik təsvirini nəzərdə tutur. Blok-modulun yaradılmasında məqsəd təlimin müxtəlif mərhələlərində təşkilati və məzmun vəhdətini təmin etməkdir.

İnformasiyanın strukturlaşdırması tələbənin idrak fəaliyyətinin məntiqi yükünü artırır, tədris fəaliyyətinin tələbənin intellektual səviyyəsinə uyğun differensiallaşmasına imkan yaradır.

Tədris modulu eyni kursa (və ya müxtəlif kurslara) aid fənlərin iki və ya daha çox mövzusu əsasında formalaşır. Tədris materialının modullara bölünməsi istifadə edilən təlim texnologiyasının gələcək strukturunu müəyyən edir. Kurs üzrə tədris modulları iyerarxik olur. Bu zaman əvvəlki modullar tam və ya qismən sonrakı modulların hissəsi (elementi) ola bilər. Bu prinsip biliyin elmi sturukturu baxımından fənn və kurs çərçivəsində horizontal olaraq həyata keçirilir. Bu prinsip tədris materialının daha iri bloklarına da şamil edilməli, o cümlədən tədris planları da modul prinsipi ilə formalaşmalıdır. Məhz bu səbəbdən Bolonya prosesinin mühüm tələblərindən biri ali təhsildə kredit-modul sisteminin tətbiqidir.

MÜTƏXƏSSİSLƏRİN UNİVERSİTETDƏ HAZIRLANMASI KEYFİYYƏTİNİN PLANLAŞDIRILMASI

Mütəxəssislərin universitetdə hazırlanması keyfiyyətinin planlaşdırılması aşağıdakı istiqamətlər üzrə həyata keçirilə bilər:

1. Tədris prosesinin təşkili və həyata keçirilməsi.

2. Tədris prosesinin metodik təminatı.

3. Tədris prosesinin maddi-texniki və informasiya təminatı.

4. Təlimin keyfiyyət göstəricilərinin planlaşdırılması.

5. Dövlət imtahanlarının, buraxılış işləri müdafiəsinin təşkili və həyata keçirilməsi.

6. Kadr təminatının keyfiyyəti.

7. Elmi-tədqiqat işlərinin təşkili və səmərəliliyi.

8. Elmi-tədqiqat işlərinin təşkili və səmərəliliyi.

Bu istiqamətlərin hər birinə ayrı-ayrılıqda diqqət yetirək.

1. Tədris prosesinin təşkili və həyata keçirilməsi istiqaməti bu məsələləri əhatə edir:

A. Dövlət təhsil standartları (sənədlər külliyatı).

B. Ali məktəb üzrə hüquqi-normativ aktlar və sənədlər.

C. İstiqamətlər və ixtisaslar üzrə kadr hazırlığı üçün lisenziya.

D. İstiqamətlər və ixtisaslar üzrə tipik və işçi tədris planları.

E. Fənlər üzrə tədris və işçi proqramlar.

F. Müəllimlər arasında tədris yükünün paylanması, fərdi plana uyğun olaraq onların digər növ işlərlə yüklənmə dərəcəsi.

G. Mütəxəssis hazırlığına dair sifarişçi təşkilatların tövsiyələri.

2. Tədris prosesinin metodik təminatı istiqaməti bu məsələləri əhatə edir:

A. Tələbələrin yüksək keyfiyyətli təlimi üçün mühazirə mətnləri, metodik işləmələr.

B. Fənlər və məşğələ növləri üzrə tədris və tədris-metodik ədəbiyyat.

C. Təlimin aktiv metodları, yeni sistem və texnologiyaların tətbiqi üzrə metodik göstərişlər, yoxlama yazı işi, kurs işi, layihə işi, laboratoriya işlərinin təsviri, imtahan biletləri və s.

3. Tədris prosesinin maddi texniki və informasiya təminatı istiqaməti bu məsələləri əhatə edir:

A. Normativə uyğun olaraq tədris prosesinin auditoriya fondu ilə təminatı.

B. Tədris prosesinin informasiya texnologiyaları ilə təminatı.

C. Auditoriya və laboratoriyaların zəruri avadanlıq, texniki vasitə və didaktik materiallarla təminatı, tələbələrin təcrübə keçməsi üçün müvafiq bazanın mövcudluğu.

4. Təlimin keyfiyyət göstəricilərinin planlaşdırılması istiqaməti bu məsələləri əhatə edir:

A. Təlimin məzmununun təsdiq edilmiş dövlət təhsil standartlarına, tədris plan və proqramlarına uyğunluğu.

B. Tələbələrin müstəqil və fərdi işi.

C. Təlimin birinci səviyyəsinin nəticələrinə görə tələbələrin attestasiyası.

D. Tədris məşğələləri cədvəllərinin, məsləhət saatlarının işçi tədris planlarına və tələbənin vaxt büdcəsinə uyğunluğu.

E. Tədris materiallarının tələbələr tərəfindən mənimsənilmə dərəcəsi (cari nəzarət, imtahan, buraxılış işlərinin müdafiəsi əsasında)

(davamı gələn sayımızda)

"Garanti Bankası" SOCAR-a yarım milyard dollar kredit verəcək

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2011-ci ildə Türkiyənin İzmir şəhərində təməlini qoyduğu və dəyəri 5,7 mlrd. ABŞ dolları olan "Star" neft emalı zavodunun tikintisinin maliyyələşdirilməsi məsələsini tam olaraq həll edib.

Qeyd edək ki, zavodun tikintisi üçün lazım olan 5,7 mlrd. dollardan 2,2 mlrd. dollarını SOCAR yatıracaq.

Türkiyə mətbuatının verdiyi məlumata görə, SOCAR 15 xarici kommersiya bankından maliyyə cəlb edə bilib. Banklar arasında Türkiyənin "Garanti Bankası" da yer alıb.

Məlumata görə, xarici kommersiya və ixrac banklarından neft emalı zavodunun tikintisi üçün cəlb olunacaq 3,5 mlrd. dollar dəyərində kredit 18 il müddətinə veriləcək. "Star" neft emalı zavodunun 3,5 mlrd. dollarlıq maliyyələşmə paketi bu ay içində tamamilə həll olunacaq. Əldə olunan son razılaşmaya görə, maliyyələşmə paketinin 3 mlrd. dollarlıq hissəsi 5 ölkənin (İspaniya, İtaliya, ABŞ, Cənubi Koreya və Yaponiya) ixrac bankları da daxil olmaqla 15 xarici bankla ödəniləcək. Paketdə yer alan banklardan biri də Türkiyənin "Garanti Bankası"dır ki, bu bank layihənin tikintisinə 15 il müddətinə 500 mln. dollar vəsait ayıracaq.

SOCAR-ın Türkiyədəki törəmə şirkəti olan "SOCAR-Türkiyə"nin rəhbəri Kənan Yavuz bildirib ki, "Star" neft emalı zavodu Türkiyənin TÜPRAŞ şirkətindən sonra ikinci böyük şirkət olacaq.

Bir ilə orta aylıq əmək haqqı 30 manata yaxın artıb

2014-cü ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 434,3 manat olmuşdur. Bu barədə Dövlət Statistika komitəsindən bildirilib.

Ötən ilin eyni dövründə muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 404,7 manat təşkil edirdi. Göründüyü kimi, orta aylıq nominal əmək haqqı son bir ildə 29,6 manat və ya 7,3% artıb. 2014-cü il aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1510,4 min nəfər olmuş, onlardan 900,7 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 609,7 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir.

ƏN ÇOX MUZDLU İŞÇİ TƏHSİLDƏDİR

Muzdla işləyənlərin 22,4 faizi təhsildə, 18,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,9 faizi sənayedə, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 7,0 faizi tikintidə, 5,1 faizi nəqliyyat və anbar təsərrüfatında, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət sahəsində, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,7 faizi informasiya və rabitə sahəsində və 17,1 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Komitənin məlumatında qeyd olunur ki, orta aylıq nominal əmək haqqı 434,3 manat təşkil etsə də, iqtisadiyyatın mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə, nəqliyyat və anbar təsərrüfatında orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

Aprelda səhmlərin yerləşdirilməsi 4,5 dəfə artıb

2014-cü ilin yanvar-aprel ayları ərzində Bakı Fond Birjasında bütün alətlər üzrə keçirilən əqdlərin ümumi həcmi 4 milyard 806 milyon 807 min 151 manat təşkil etmişdir.

Bakı Fond Birjasından daxil olmuş məlumata görə, cari ilin aprel ayında əqdlərin ümumi həcmi 809 milyon 133 min 456 manat olmuş, bu da 2013-cü ilin analoji dövrü ilə müqayisədə 51% çoxdur.

Cari ilin aprel ayı ərzində dövlət qiymətli kağızlar bazarının həcmi 21,1% azalaraq 312 milyon 889 min 683,04 manata düşmüşdür. Eyni dövrdə korporativ qiymətli kağızlar bazarında əqdlərin həcmi təxminən 3,6 dəfə artaraq 496 milyon 243 min 773 manata yüksəlmişdir. Korporativ qiymətli kağızlar üzrə əqdlərin artmasına səhmlərin yerləşdirilməsi üzrə əqdlərin həcminin 4,5 dəfə artması təsir göstərmişdir.

Azərbaycan iqtisadiyyatı tarixi müstəvidə

QAFQAZ ALBANİYASININ TƏSƏRRÜFAT HƏYATI

Hələ qədim dövrlərdə Şimali Azərbaycan torpaqlarında albanlar və onlara qohum tayfalar yaşamışlar. Bu torpaqlar bir müddət Əhəməni imperiyasının tərkibinə daxil idi. Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində Əhəməni imperiyası süqut etdi. Alban torpaqlarında müstəqil dövlət yarandı.

Antik qaynaqlarda göstərilir ki, Alban torpaqları çox bərəkətli, əhalisi isə sıxdır. Strabon yazır ki, Alban ərazisində "nəinki cürbəcür bostan məhsulları, həm də hər cür bitkilər yetişdirilir, həqiqətən, orada hətta həmişəyaşıl bitkilər yetişir. Torpaq çox yerdə 2 və ya 3 dəfə məhsul verir və birinci məhsul səpiləndən hətta 50 dəfə artıq alınır, həm də tarla dincə qoyulmur və dəmir kotanla deyil, ağac xışla şumlanır. Bütün bu düzənlik öz çayları və başqa suları ilə Babilistan və Misir torpaqlarından daha yaxşı suvarılır, buna görə də o, həmişə sıx otlu görünüşünü saxlayır və otlaqlarla boldur. Üstəlik, burada iqlim də başqa ölkələrdə olduğundan daha əlverişlidir".

Alban əhalisi taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük, maldarlıqla məşğul olurdu. Taxıl bitkilərindən buğda, arpa, darı yetişdirilirdi. Taxıl dəmir oraqlarla biçilir və əsasən xırmanlarda, altına xırda daş dişlər keçirilmiş, ağacdan düzəldilən yastı vəllə döyülürdü.

Taxılı iri saxsı təsərrüfat küplərində və xüsusi quyularda saxlayırdılar. Arxeoloji qazıntılar zamanı Qəbələ, Mingəçevir, Şamaxı və başqa yaşayış yerlərində yanıb kömürləşmiş taxıl qalıqları, dəmir oraqlar, taxıl quyuları və çoxlu təsərrüfat küpləri aşkar olunmuşdur.

Antik dövrdə taxılı əsasən qayıqvari dən daşları ilə üyüdürdülər. Az hallarda əl dəyirmanlarından istifadə edirdilər. Eramızın ilk əsrlərindən başlayaraq burada su dəyirmanlarından istifadə olunduğu da güman edilir.

Əhali meyvələrin mədəni növləri ilə yanaşı, onların meşələrdə bitən vəhşi növlərindən də istifadə edirdi. Strabon bu barədə yazır: "Bütün ölkədə yabanı meyvələr və insan tərəfindən becərilən ağacların meyvələri boldur. Burada həmişəyaşıl bitkilər və hətta zeytun da bitir".



Ölkədə alma, armud, nar, əncir, fındıq, qoz, şabalıd və bir sıra başqa meyvələr yetişdirilirdi. Təsərrüfatda üzümçülük və şərabçılıq xüsusi yer tuturdu. Strabon Alban torpaqlarında üzümün məhsuldarlığını qeyd edərək yazırdı: "Üzüm tənəklərinin dibini orada heç vaxt axıradək belləmirlər və yalnız beş ildən bir budayırlar. Cavan tənəklər artıq ikinci il bar verir, yetginliyə çatanda isə o qədər salxım gətirir ki, onların çox hissəsi yığılmadan tənəklərdə qalır". Bu fikri arxeoloji qazıntılar da sübut edir. Bu ərazidə üzümçülük və şərabçılıqla çox qədimdən məşğul olmuşlar. Antik dövrdə isə təsərrüfatın bu sahəsi daha çox inkişaf edib. Şamaxıda və Qəbələdə arxeoloji qazantılar zamanı şərab istehsalı ilə bağlı emalatxanaların qalıqları, şərab saxlamaq üçün istifadə olunan çoxlu böyük küplər tapılmışdır. Arxeoloji qazıntılar zamanı yanıb kömürləmiş üzüm giləyi və çəyirdəkləri də tapılıb. Üzüm və başqa meyvələr bəzən qurudulur, onlardan bəhməz və başqa ərzaq məhsulları hazırlanırdı.

Yazılı qaynaqlar və arxeoloji tapıntılar göstərir ki, geniş miqyasda qarpız, qovun, qabaq və digər tərəvəz və bostan məhsulları yetişdirilirdi.

Alban ərazisində maldarlığın inkişafı üçün çox əlverişli təbii-coğrafi və iqlim şəraiti, bol otlaqlar vardı. Alp çəmənlikləri və qışı mülayim keçən geniş düzənliklər köçmə maldarlığın inkişafını şərtləndirirdi. Strabon yazırdı ki, "mal-qara da, ev heyvanları da, çöl heyvanları da onların ölkəsində yaxşı çoxalır". II-III əsrlərdə yaşamış yunan müəllifi Klavdi Elian isə Kaspi torpaqlarında çoxlu mal naxırları və at ilxılarının olması barədə məlumat verir. O yazırdı ki, kaspilər "düm ağ, buynuzsuz, kütburun keçilər saxlayırdılar". Onlar dəvə də saxlayırdılar. Bu dəvələrin yunu öz zərifliyi və yumşaqlığı ilə Milet yunundan geri qalmırdı. "Kahinlər, ən varlı və nüfuzlu kaspilər bu yundan toxunmuş paltarlar geyirlər".

Alban ölkəsində çoxlu minik və yük atları yetişdirilirdi. Minik atlarından hərbi işdə də geniş isitifadə olunurdu. Strabonun məlumatına görə, Pompeyin yürüşü zamanı albanlar romalılara qarşı 60 min piyada, 22 min atlı qoşun çıxarmışdılar.

Arxeoloji qazıntılar zamanı tapılan külli miqdarda heyvan sümükləri Albaniyada heyvandarlığın inkişafı barədə antik dövr müəlliflərinin məlumatlarını təsdiq edir. Bu sümüklər iri və xırda buynuzlu mal, at, dəvə və başqa ev heyvanlarına məxsusdur.

Albanlar ev quşları da saxlamışlar. Əhali heyvanların ətindən, süd məhsullarından, dərisindən istifadə etmişdir. Yardımçı təsərrüfat kimi ovçuluqla məşğul olurdular. Burada vəhşi heyvanların və quşların ovlanması barədə antik müəlliflər də məlumat verirlər. Qazıntılar zamanı maral, ceyran, cüyür, qaban və başqa ov heyvanlarının sümüklərinə tez-tez tesadüf olunurdu. Strabon və Yuli Solin albanların ov itləri barədə geniş məlumat vermişlər.

Təsərrüfat həyatında balıqçılıq da böyük yer tuturdu. Bu barədə Elian yazırdı: "Mən eşitmişəm ki, kaspilərin ərazisində böyük göl var. Bu göldə böyük uzunburun balıqlar yaşayır. Onların uzunluğu hətta 8 qulaca çatır. Kaspilər onları tutur, duzlayır və ya qurudur, dəvələrə yükləyib Ekbatan şəhərinə aparırlar. Bu balıqların piyindən sürtgü yağı düzəldir və ya onu duzlayaraq satırlar, iyi olmayan bu balıq yağını bədənlərinə sürtürlər. Balıqların içalatını çıxardıb bişirir və ondan yapışqan hazırlayırlar. Azərbaycanın Kür çayı boyunca yaşayan əhalisi son zamanlara qədər balıq içalatından yapışqan istehsal etmişdir.

Xədicə RƏHİMOVA

“Dünya hələ bu dahi mütəfəkkirin irsi haqqında az məlumatlıdır. Onun əsərləri, “Xəmsə” ingilis, fransız, alman, çin və s. əsas dünya dillərinə tərcümə olunmalıdır. Hesab edirəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin prioritetlərindən biri də budur”.

Aprelin 27-də Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin VI toplantısı keçirildi. Toplantıda qurumun həmsədri, Latviyanın sabiq prezidenti, Şərqi Avropada ilk qadın dövlət başçısı Vayra Vike-Freyberqa da iştirak edirdi. Xanım Vike-Freyberqa, eyni zamanda, BMT baş katibinin xüsusi elçisi, Madrid Klubunun prezidentidir. Fürsətdən istifadə edib onunla həmsöhbət olduq.

- Siz böyük həyat təcrübəsinə malik bir insansınız. Bu həm sizin möhtəşəm karyeranızla, həm də həyatınızda iz qoymuş müharibə ilə, mühacirətlə bağlıdır. Bəlkə söhbətə lap əvvəldən başlayaq?

- Bilirsiniz, Latviya I Dünya müharibəsindən sonra, 1918-ci ildə müstəqilliyini elan edib. 1919-cu ildə bolşeviklər ölkənin böyük bir hissəsini işğal ediblər və çox repressiv, amansız siyasət yeridiblər. Amma təxminən bir il sonra ölkəmiz suverenliyini bərpa edib. 1940-cı ildə Almaniya Polşanı işğal edəndə Sovet İttifaqı da Baltik ölkələrində özünün əsaslarını qoydu. Anam xatırlayırdı ki, həmin vaxt yerli əhali məcburən silah gücünə referendumda iştirak edib. Hətta onlar heç səsvermə məntəqəsinə də getməyiblər. Silahlı adamlar evlərə gəlir və sual verirdilər: siz Latviyanın Sovet İttifaqının tərkibinə daxil olmasını istəyirsiniz? Əlbəttə ki, əhali “bəli” cavabını verirdi. 1940-cı ilin iyununda Baltik ölkələrindən mülki əhalinin bir hissəsi deportasiya olundu, əksəriyyət soyuq Sibirə göndərildi. 1941-ci ildə Almaniya ilə Sovet İttifaqı arasında müharibə başlandı. Latviyalılar Stalin rejiminin necə repressiv olduğunu gördüyünə görə, almanlar gələndə sanki azadlıq əldə etmişdilər. 1945-ci ildə almanlar müharibəni uduzdu, Qırmızı Ordu yenidən Latviyaya daxil oldu, Sovet İttifaqı dedi ki, biz sizi faşistlərdən azad etmişik. Mənim valideynlərim isə müstəqil Latviya istəyirdilər. Beləliklə, biz Stalin rejimindən və Qırmızı Ordudan qaçıb Qərbə getdik. Qeyd edim ki, həmin vaxt Stalin rejimini qəbul etməyən təxminən 7 milyona yaxın insan Şərqi Avropadan qaçqın kimi Almaniyada məskunlaşmalı oldu. Çox ağır vaxtlar idi. Mənim kiçik bacım üç həftədən sonra qaçqınlıq şəraitinin ağırlığına tab gətirə bilməyərək vəfat etdi. Babam, nənəm, xalalarım, dayılarım ailəsi ilə Sovet sistemini qəbul edib qalmışdı. Çünki onların başqa seçimi yox idi. Təsərrüfatlarını, eşiklərini qoyub getmək istəməmişdilər. Amma onların da həyatı ağır idi. Sovet rejimini qəbul edib Latviyada qalanlar bütün imkanlarından məhrum oldular. 1944-1949-cu illərdə böyük sürgün baş verdi. Bir sözlə, Latviya Sovet İttifaqına daxil olduğu illərdə xoşbəxt deyildi. Nəhayət, 1991-ci ildə Latviya müstəqilliyini bərpa etdi.

- Siz torpaqlarınızın işğal olunması, qaçqınlıq barədə danışanda mən dünyanın bir çox yerlərində bu gün də davam edən bənzər olayları xatırladım. Azərbaycanın da ərazisinin bir hissəsi 20 ildən çoxdur ki, Ermənistan tərəfindən işğal edilib. Bu vəziyyətin həlli yolu kimi nə təklif edərdiniz?

- Əslində, müharibələr bir-birinə düşmən münasibətindən yaranır. Tarixən ölkələr başqa ərazini tutmaq, təbii sərvətlər uğrunda müharibələr ediblər. Məsələn, götürək Avropanı. Fransa və İngiltərə yüz il, Fransa və Almaniya 30 il qanlı müharibə aparıb. Müasir müharibələrdə isə kənar təsir, kənar qüvvələr əsas rol oynayır. Məsələn, bu gün Suriyada lokal müharibə gedir, amma, eyni zamanda, xaricdən də müdaxilə var. Qarabağ münaqişəsi də, təəssüf ki, xarici qüvvələrin təsiri ilə neçə illərdir uzanır. Təəssüf ki, beynəlxalq birlik, BMT dünyada baş verən müharibə və münaqişələri həll etmək üçün təsirli mexanizmlərə malik deyil. Ruandada bir milyona yaxın insan qırğınların qurbanı oldu, lakin BMT müdaxilə edə bilmədi. Srebrenitsada 8 min müsəlman qətlə yetirildi, yenə eyni vəziyyət oldu. Çünki BMT yerli konfliktlərdə iştirak etmir. BMT hələ də müdafiə məsuliyyəti konsepsiyası uğrunda mübarizə aparır. Əgər iki tərəf bir-biri ilə vuruşursa, hər ikisi də haqlı olduğunu iddia edir. İşğala məruz qalan Azərbaycan torpaqlarına gəlincə, təəssüf ki, belə vəziyyət İraq, Əfqanıstan daxil olmaqla dünyanın bir çox hissəsində baş verir.

- Siyasi və tarixi mövzulardan bugünkü ictimai fəaliyyətinizə keçək. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi, necə düşünürsünüz, bu qurumun əsas prioriteti nə olmalıdır? Ümumiyyətlə, Nizami irsinin müasir dövrdə mədəniyyətlərarası dialoqun genişləndirilməsində rolunu necə dəyərləndirirsiniz?

- Düşünürəm ki, müasir dünya Nizaminin yaşadığı XII əsr haqqında daha geniş məlumata malik olmalıdır. Fikrimcə, dünya hələ bu dahi mütəfəkkirin irsi haqqında az məlumatlıdır. Latviyada Nizami haqqında eşidən bir neçə insan tanıyıram. Maraqlı fakt odur ki, onlar sovet dövründə bu mütəfəkkir haqqında eşidiblər. Qərbdə yaşayan alimlər, tədqiqatçılar onun əlyazmalarından xəbərdardırlar. Əsərlərinə çəkilmiş miniatür sənəti ilə maraqlanırlar. İncəsənətə önəm verən, dünya mədəniyyəti ilə maraqlanan avropalılar və amerikalılar Nizamini dahi şəxsiyyət kimi dəyərləndirirlər, əsərlərini sevirlər. Təəssüf ki, Nizaminin əsərlərinin dünya dillərinə tərcümələri azdır. Bu baxımdan hesab edirəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas prioritetlərindən biri də budur. Onun əsərləri, “Xəmsə” ingilis, fransız, alman, rus, çin və s. əsas dünya dillərinə tərcümə olunmalıdır. Düzdür, onun doqquz əsr öncəki tarixə malik olan poeziyasını tərcümə etmək çətindir. Mənə gəlincə, Nizami Gəncəvinin poeziyası ilə bağlı araşdırma aparmaq və bu araşdırmaları hekayələrin strukturu ilə birləşdirmək istərdim. Bilmək istərdim ki, o, əsərlərində ən çox nədən bəhs edir. Çünki mən Latviyanın ənənəvi poeziyası ilə də yaxından maraqlanıram. Əgər mənim başqa ömrüm olsaydı, yəqin ki, fars dilini öyrənərdim və Nizamini orijinalda oxuyardım. Amma bu mümkünsüzdür. Buna görə də yalnız tərcümələrdən istifadə edə bilərəm.

- Siz səkkiz illik (1999-2007) prezidentliyiniz dövründə Latviyanın həm Avropa İttifaqına, həm də NATO-ya üzv olması ilə adınızı tarixə yazdırmısınız. Dövlət başçısı kimi bu məsuliyyəti necə yaşamısınız?

- Prezident olmaq böyük məsuliyyət və eyni zamanda, özünə əminlik deməkdir. Əgər insan özünə əmin deyilsə, edəcəyi hər hansı bir işə tərəddüdlə yanaşırsa, bu zaman çətinlik meydana gələcək. Məsələn, əgər özünə inamın azdırsa, cərrah ola bilməzsən. Sən əməliyyat apararkən insanın sağlamlığını önəmli sayaraq səbirli olmalısan. Prezident də etdiyi hər bir işə inamlı olmalıdır. Sən bir siyasətçisən və ölkəni, fərdiyyəti anlamalı, təhlil etməli və diaqnoz qoymalısan. Prezident olmaq sadə iş deyil, lakin yaxşı və kifayət qədər məsuliyyətli işdir.

- Uzun illərdir ki, aktiv siyasi, ictimai fəaliyyətinizlə yanaşı, xarici görünüşünüzlə, xüsusilə də çox səliqəli saç düzümünüzlə diqqəti cəlb edirsiniz...

- Mən artıq bu iş üzrə professoram (gülür). Mən əvvəllər bərbərə 3 ayda bir dəfə gedirdim. Saçım əvvəllər başqa formada idi. Prezident olandan sonra sən istənilən an kameraya tuş gəlirsən. Və həm də zahiri görünüşlə öz ölkənin imicini təqdim edirsən. Mən saçlarımın qaydada olmasına görə ölkəmə minnətdaram və saç düzümümü zarafatla “savaş dəbilqəm” adlandırardım. Mən işə gedəndə, ictimaiyyət qarşısında olanda əsgərəm. Mənə görə, saçımdakı bu sprey mənim dəbilqəmdir.

- Bakıya səfərinizin bir məqsədi də burada keçirilən II Qlobal Müştərək Cəmiyyətlər Forumudur. Forumdan gözləntiləriniz nədir?

- Budəfəki foruma çoxlu sayda sabiq dövlət və hökumət başçısı qatılıb. Biz geniş təcrübəyə malikik. Doğrudur, indi bizim nə hakimiyyətimiz var, nə də qərar qəbul edə bilərik. Lakin ictimai rəyə və müzakirələrə təsir edə bilərik. Ümidverici təklifləri BMT-nin müzakirəsinə ötürə bilərik. Forumun məqsədlərindən biri «Post-2015» gündəliyində duran əsas məsələlərə dair milli, beynəlxalq qərarlar qəbul etmək və dialoq aparmaqdır. 2015-ci ildə sivil dünyanın prioritetləri nələr olmalıdır. 2015-ci ildə BMT-nin qarşısında duran əsas məsələlərdən biri də yoxsulluğun kütləvi şəkildə azaldılması və inkişafa doğru irəliləməkdir. Bəzən dünya bizi çox təəccübləndirir. Son zamanlar Ukraynada baş verən hadisələr böyük təəccüb doğurdu. Eyni zamanda, halhazırda bizim davamlı inkişafa, müştərək cəmiyyətə ehtiyacımız var.

- Son olaraq nə demək istərdiniz?

Son olaraq onu demək istərdim ki, mən Azərbaycana artıq bir neçə dəfə səfər etmişəm, ölkənizi çox sevirəm. Azərbaycanın zəngin mədəniyyəti, ədəbiyyatı, Nizami kimi dahi şairi var. Odur ki, mən Azərbaycan dilini öyrənmək istərdim.

A.SULTANOVA

YAPI KREDİ AZƏRBAYCAN BANK QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN

01 Yanvar 2014-cü il tarixə icmal balansı

(AZN)

BALANS HESABATI

Aktivlər		Məbləğ
1	Nəqd Pul	19,950,505
2	Milli Banka Qarşı Tələblər Cəmi	30,220,621
a)	müxbir hesabları	25,117,621
b)	məcburi ehtiyyat fondları	5,103,000
3	Banklara və maliyyə idarələrinə kreditlər və avanslar	20,191,331
4	Müştərilərə verilmiş kreditlər və avanslar	210,177,722
5	İnvestisiyalar	4,980,605
6	Hesablanmış faizlər	1,903,060
7	Əsas vəsaitlər	16,813,470
8	Sair aktivlər	3,003,157
Aktivlərin Cəmi:		**307,240,472**

Pul vəsaitləri və

Öhdəliklərin maddələri		Məbləğ
1	AMB-nın banka tələbləri	-
2	Bankların Depozitləri	118,237,694
3	Müştərilərin Depozitləri	122,318,696
a)	tələb olunanadək	70,144,273
b)	muddəti depozitlər	52,174,423
4	Hesablanmış faiz öhdəlikləri	1,925,164
5	Sair Öhdəliklər	3,664,702
Öhdəliklər Cəmi:		**246,146,256**

Kapital		Məbləğ
1	Adi Səhmlər	46,810,704
2	Bölüşdürülməmiş xalis mənfəət (zərər)	13,048,629
3	Cari ilin mənfəəti (2012)	1,234,883
Kapitalın Cəmi:		**61,094,216**
Öhdəliklərin və kapitalın cəmi		**307,240,472**

BALANSARXASI ÖHDƏLİKLƏR

Öhdəliklər		Məbləğ
1	Zəmanətlər və oxşar öhdəliklər	19,931,366
2	Kredit Alətləri	73,995,306
3	Akkreditivlər	2,116,173
4	Forvard və fyuçer müqavilələri	
5	Digər balansarxası	613,728,268
Cəmi:		**709,771,114**

MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

Gəlir və xərclərin maddələri		Məbləğ
1	Faizlər və faizəbənzər gəlirlər	25,163,887
2	Faizlər və faizəbənzər xərclər	5,840,761
A-Xalis faiz gəlirləri (xərcləri) 1-2		**19,323,126**
3	Əməliyyat gəlirləri	12,609,535
4	Əməliyyat xərcləri	25,814,873
B-Xalis əməliyyat gəlirləri (xərcləri) 3-4		**(13,205,337.8)**
C-Xalis digər gəlirlər (xərclər) 5-6		(153,561)
7	Aktivlərdən dəyə biləcək zərərin ödənilməsi üçün məqsədli ehtiyyatlar	3,841,404
8	Vergi tutulmazdan əvvəl xalis mənfəət (zərər) **A+B+C**	**2,122,823**
9	Gəlirdən çıxılan keçmiş illərin zərəri	
10	Mənfəətdən Vergilər	887,940
11	Vergilər çıxıldıqdan sonra xalis mənfəət (zərər) **8-9-10**	**1,234,883**
Qeyd: Elan olunmuş dividentlərin məbləği		

Yoxlama "Deloitte" audit şirkəti tərəfindən (VÖEN 1300679981) 19 noyabr 2012-ci il tarixli müqaviləyə əsasən aparılıb

İdarə Heyəti sədrinin / Baş Direktorun 1-ci müavini
Baş direktor (COO) **O.Günaydın**

Mühasibatlığa Nəzarət Departamentinin Müdiri **X.Həsənova**

Maliyyə Hesabatlığı Departamentinin Müdir Müavini **R.Səftərov**

Closed Joint Stock Company Yapı Kredi Bank Azerbaijan
YAPI KREDİ BANK AZƏRBAYCAN
Qapalı Səhmdar Cəmiyyəti

Dünya

LAO-TSZI-ya görə 99 «xəstəlik»

(əvvəli ötən sayımızda)

- Aşağı vəziyyətdə olaraq ali cənablar haqqında pis (şər) danışmaq xəstəlikdir.
- İnsanlara böhtan ataraq özünə yer tutmaq xəstəlikdir.
- Öz depotensiyası ilə təzahür etmək xəstəlikdir.
- Kimisə məğlub edərək uğur qazanmaq xəstəlikdir.
- Tamahkar sövqlər üzündən ədaləti pozmaq xəstəlikdir.
-Digərlərinin təhlükəsi hesabına təhlükəsizliyi qoruyub saxlamaq xəstəlikdir.
- Qısqanc olmaq xəstəlikdir.
- Hirsli (tündxasiyyət) olmaq üzündən ətrafdakılarla ziddiyyətə girmək xəstəlikdir.
- Çox nifrət etmək və az sevmək xəstəlikdir.
-Nələrinsə düzgün olub-olmadığını daim müzakirə etmək xəstəlikdir.
- Məsuliyyəti digər insanların üzərinə atmaq xəstəlikdir.
- Mahiyyətdən uzaqlaşaraq yalnız xarici cəhətə bağlanmaq xəstəlikdir.
- Digər insanların ləyaqətini və çatışmazlıqlarını müzakirə etmək xəstəlikdir.
- İnsanları yalançı hesab edərək özünə inanmaq xəstəlikdir.
- İnsanlara kömək edərək əvəzini görməyə ümid bəsləmək xəstəlikdir.
- Hər hansı canlı məxluqu söymək, abrın almaq, biabır etmək xəstəlikdir.
- Cadugarlıq üsulları ilə hər hansı bir şəxsə zərər vurmaq xəstəlikdir.
- İstedadlı adamları biabır və məzəmmət etmək xəstəlikdir.

- İnsanları səni ötdüyünə görə sevməmək xəstəlikdir.
- Müxtəlif zəhərlərə (araq, tütün və s.) aludə olmaq xəstəlikdir.
- Fikirdə köhnə incikliklərə qayıtmaq xəstəlikdir.
- Hər hansı bir qabiliyyətə görə çox səs-küy, qalmaqal yaratmaq xəstəlikdir.
- Öyüd-nəsihəti və tənqidi qəbul etməmək xəstəlikdir.
- Rəsmi şikayətlərin köməyilə kiməsə qalib gəlmək xəstəlikdir.
- Axmaqla, ağılsızla söhbət etmək xəstəlikdir.
- Ağır şəraitdə yüngül xasiyyət kimi hərəkət etmək xəstəlikdir.
- Qanunsuzluqlara təhrik etmək xəstəlikdir.
- Səni haqlı hesab edildiyinə görə sevmək xəstəlikdir.
- Çox şübhə etmək və az inanmaq xəstəlikdir.
- Dəlilərə, ürək keçməsi olanlara gülmək xəstəlikdir.
- Mərasimə (ayinə) riayət etməyərək, tənbəlləşərək oturmaq xəstəlikdir.
- Yaxşı olmayan sözlər, pis nitqlər xəstəlikdir.
- Qocalara və uşaqlara nifrətlə və nəzakətsiz yanaşmaq xəstəlikdir.
- Pis münasibət və yaxşı olmayan davranış (əxlaq) xəstəlikdir.
- Şənliklərə, əyləncələrlə və zarafatlarla çox bağlı olmaq xəstəlikdir.
- İnsanların məhdudlaşdırılmasını sevmək xəstəlikdir.
- Hiyləgərlik və yaltaqlıq xəstəlikdir.
- Yalançı olmaq və öz vədlərinə əməl etməmək xəstəlikdir.
- Şərab içərək şuluqluq etmək, dava-dalaş salmaq xəstəlikdir.
- Külək və yağışa görə söyüş söymək, hədyan və nalayiq sözlər işlətmək xəstəlikdir.
- Pis sözlərə görə öldürməyi arzu etmək xəstəlikdir.
- Hamiləliyin dayandırılmasına sövq etmək xəstəlikdir.
- Özgə işlərinə qarışmaq xəstəlikdir.
- Gizlin, oğrun-oğrun baxmaq xəstəlikdir.
- Borc götürmək, kreditorlardan yayınmaq (gizlənmək) xəstəlikdir.
- Əks tərəfin fikrinə qulaq asmamaq xəstəlikdir.
- Kəskin imtinalara sevgi xəstəlikdir.
- Qadınlara inadla və təkidlə sataşmaq xəstəlikdir.
- Köhnə yanılmalar (səhvlər) üzündən digərlərini bu yanılmalara (səhvlərə) sövq etmək xəstəlikdir.
- Quş yuvasını dağıtmaq, onun yumurtasını sındırmaq xəstəlikdir.
- Rüşeymi (dölü) öldürmək, bədənini (ətini) kəsmək xəstəlikdir.
- Od və su vasitəsi ilə zərər vurmaq xəstəlikdir.
- Kor, kar və lal adamlara gülmək xəstəlikdir.
- Nikaha daxil olmağa sövq etmək xəstəlikdir.
-İnsanlara təxribat törətməyi öyrətmək xəstəlikdir.
- İnsanlara pis (şər) işləri öyrətmək xəstəlikdir.
- Dara düşən, fəlakətlə üzləşən insanlara öz münasibətini dəyişmək xəstəlikdir.
- Bədbəxtlik arzulamaq, fəlakətə çağırmaq xəstəlikdir.
- Hər hansı bir xoş şeyi görərək, əldə etməyi arzu etmək xəstəlikdir.
- İnsanlardan bir şeyi zorla almaq xəstəlikdir.
- Xeyirxah hərəkət (əməl) edərək qürrələnmək xəstəlikdir.
- Hər hansı bir şeyi yalanla əldə etmək arzusu xəstəlikdir.

BDU-nun dosenti
F.M.QARAYEV

“Üç qonşu ölkəni tur əhatə etsin”

Türkiyə, Azərbaycan və Gürcüstanı əhatə edən ümumi turizm marşrutunun yaradılması məsələsi müzakirə olunub.

Məsələ mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin Azərbaycan Turizm Assosiasiyasının dəvəti ilə ölkəmizdə səfərdə olan Türkiyə Turizm Şirkətləri Assosiasiyasının (TURSAB) baş katibi Çetin Gürcünün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü zamanı müzakirə olunub.

Qeyd edilib ki, üç qonşu ölkəni əhatə edən turun təqdim edilməsi bu ölkələrdə turizmin inkişafına müsbət təsir göstərər.

“Alstom” Azərbaycana 50 elektrovoz satacaq

“Alstom” beynəlxalq şirkəti Azərbaycanın dəmir yolları üçün 50 KZ8A yük elektrovozu göndərəcək. Tədarük haqqında müqavilə bazar ertəsi Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Fransua Ollandın iştirakı ilə keçirilən Azərbaycan-Fransa biznes forumu çərçivəsində imzalanıb.

“Alstom” şirkətinin məlumatında deyilir ki, elektrovozlar 2016-cı ildən 2018-ci ilədək “Alstom”un iştirakı ilə birgə müəssisə olan EKZ şirkətində istehsal olunacaq. Müqavilənin ümumi dəyəri 300 milyon avroya yaxındır. "Alstom" şirkətinin müqavilə payı təqribən 150 milyon avro təşkil edəcək.

İmzalanmış sənəd habelə servis deposunun yaradılmasını, texniki dəstəyin və texniki xidmətin təmin olunmasını, müştəri personalının təlimi imkanlarını nəzərdə tutur. Həmin məsələlər yaxın altı ay ərzində müzakirə olunacaq.

Keçirilən forum çərçivəsində "Alstom" habelə "Bakı Metropoliteni" QSC ilə əməkdaşlıq sazişi imzalayıb. Sənəd həm yeni xətlər, həm də mövcud parkın mütəmadi olaraq əvəzlənməsi məqsədi ilə müasir metro vaqonlarının hazırlanmasını nəzərdə tutur.

"Alstom" dünyada elektrik enerjisinin istehsalı və ötürülməsi üçün avadanlıqların və dəmir yolu infrastrukturunun istehsalı sahəsində liderdir. Şirkət yüzə yaxın ölkənin bazarında iştirak edir. "Alstom" şirkəti artıq 20 ildir ki, Azərbaycan bazarında da aktiv fəaliyyət göstərir.

Qeyd edək ki, elektrovozlar Qazaxıstanın Astana şəhərində yerləşən zavodda istehsal ediləcək. 2010-cu ilin yayında yük və sərnişin elektrovozlarının buraxılışına başlamış bu zavodun 25%-i “Alstom Transport” şirkətinə,25%-i “Transmaşholdinq”ə, 50%+ 1 səhm isə Qazaxıstan Dəmir yollarına məxsusdur.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

100 nəfər Qarabağ müharibəsi və 20 Yanvar əlilinə minik avtomobilləri təqdim edildi

Cari ilin əvvəlinədək növbədə olan Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin avtomobillə tam təminatı bu ay başa çatdırılır

Mayın 14-də Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 100 nəfər Qarabağ müharibəsi və 20 Yanvar əlilinə “Naz-Lifan” markalı minik avtomobilləri təqdim olunub. Avtomobillərin təqdim edilməsi mərasimində vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 dekabr 2013-cü il tarixli Sərəncamı uğurla icra olunmaqdadır. Belə ki, son iki aya yaxın vaxt ərzində cari ilin əvvəlinədək növbədə olan 675 nəfər Qarabağ müharibəsi və 20 Yanvar əlilindən artıq 500 nəfəri avtomobillə təmin edilib. Dövlət hesabına avtomobil almaq üçün növbədə dayanan digər Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin avtomobillə təminatı bu ayın sonunadək

tam başa çatdırılacaq.

Tədbirdə bildirilib ki, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi cənab Prezidentin 30 aprel 2014-cü il tarixli “1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Sərəncamının icrası işlərinə başlayıb.

2014-cü ilədək növbədə dayanan Böyük Vətən müharibəsi, Çernobıl və hərbi xidmət əlillərinə artıq gələn aydan etibarən avtomobillərin verilməsi planlaşdırılır və bu proses yaxın bir neçə ayda yekunlaşdırılacaq. Beləliklə, ölkə rəhbərinin qeyd olunan iki Sərəncamı nəticəsində cari ilin əvvəlinədək növbədə dayanmış bütün şəxslər avtomobilə sahib olacaqlar ki, bu da əlilliyi olan vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasında mühüm nailiyyətdir.

Qarabağ müharibəsi və 20 Yanvar əlilləri sevinc hisslərini bölüşərək, onların hərtərəfli təminatının gücləndirilməsinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

ƏƏSMN: “Bu ilin aprel ayında 562 nəfər işçi ilə işəgötürən arasında əmək münasibətləri leqallaşdırılıb”

10 946 manat gecikdirilmiş sosial xarakterli ödəmələrin işəgötürənlər tərəfindən işçilərə ödənilməsi də təmin olunub

Cari ilin aprel ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) ayrı-ayrı müəssisələrdə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti zamanı 562 nəfər işçi ilə işəgötürən arasında əmək müqavilələrinin bağlanılmasını təmin edib.

Eyni zamanda, işəgötürənlər və əmək kollektivləri arasında tərəflərin razılığı əsasında əmək münasibətlərinə dair əlavə şərtləri müəyyən edən 28 kollektiv müqavilə bağlanılıb. Qeyd olunan müddətdə ümumilikdə 10 946 manat gecikdirilmiş sosial xarakterli ödəmələrin işəgötürənlər tərəfindən işçilərə ödənilməsi də təmin olunub. Məbləğin 9129 manatını əmək haqları, 612 manatını zərərə görə ödənclər, 1205 manatını isə sosial müavinət və kompensasiyalar təşkil edib.

Etibarsızdır

Səbail rayonu Məmmədəliyev küçəsində istifadədə olan 0,04354 hektar torpaq sahəsindəki tam mülkiyyət hüquqlu Şirinova Aytən Akif qızının adına verilmiş MN 0172632 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevə əzizi
MƏDİNƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə “Bakıelektrikşəbəkə” ASC İdarə Heyətinin sədri Baba Rzayevə əzizi
ELŞƏNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri Cahangir Qocayev akademik Ziyad Səmədzadəyə və onun ailəsinə əzizləri
DİLARƏ SƏMƏDZADƏNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə “Bakıelektrikşəbəkə” ASC İdarə Heyətinin sədri Baba Rzayevə qaynı
ELŞƏNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Kamal Abdullayev, professor İbramxəlil İbramxəlilov və Bəybala Ələsgərov akademik Ziyad Səmədzadəyə bacısı
DİLARƏ SƏMƏDZADƏNİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ADNA-nın “Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment” kafedrasının professoru Qəzənfər Süleymanov akademik Ziyad Səmədzadəyə bacısı
DİLARƏ SƏMƏDZADƏNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ADPU-nun “Kompyuter Mərkəzi”nin direktoru İlham Əhmədov Azərbaycan Marketinq Cəmiyyəti İdarə Heyətinin sədri
RƏHİM HÜSEYNOVUN
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Məmmədhəsən Meybullayev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompüter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 3
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
“İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, **“Zaman-Azər” MMC** firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 **İndeks: 0355 Tiraj: 4710**

ELAN

“AzRe Təkrarsığorta”
Açıq Səhmdar Cəmiyyətinin
SƏHMDARLARININ NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1-ci maddəsinə uyğun olaraq, “AzRe Təkrarsığorta” ASC-nin səhmdarlarının növbəti illik ümumi yığıncağı **2014-cü il iyunun 30-da** Cəmiyyətin Bakı şəhəri, A.Bakıxanov küçəsi 6 ünvanında yerləşən **“Bridge Plaza”-nın 8-ci mərtəbəsindəki ofisində, saat 11:00-da** keçiriləcəkdir. Səhmdarların ümumi yığıncağının gündəliyinə 2013-cü ilin maliyyə göstəricilərinin və 2014-cü ilin strateji inkişaf planının müzakirəsi və s. məsələlər daxildir.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla Cəmiyyətin ofisində tanış ola bilərlər.